BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 347.735(470)

# VERGİ QANUNVERİCİLİYİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI: AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ QANUNVERİCİLİYİ VƏ BEYNƏLXALQ STANDARTLARIN MÜQAYİSƏLİ TƏHLİLİNDƏ

**E.V.MİRZƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***elnur_m@yahoo.com***

*Məqalədə Azərbaycan Respublikasının milli qanunvericiliyi və beynəlxalq standartların müqayisəli təhlilində vergi qanunvericiliyinin formalaşması və inkişafı məsələləri nəzərdən keçirilir. Aparılan təhlillərlə qeyd edilir ki, Respublikamızda büdcə-vergi siyasətinin təkmilləşdirilməsi naminə mühüm addımlar atılır, böyük nailiyyətlər əldə edilir. Eyni zamanda, məqalədə aşağıdakı təkliflərin həyata keçirilməsinin də bu istiqamətdə mühümlüyü qeyd edilir: büdcə təşkilatlarının və idarəetmə orqanlarının sayının azaldılması; bələdiyyə büdcələrinin inkişaf etdirilməsi üçün yerlərdə (paytaxtdan uzaq rayonlarda və şəhərlərdə) istehsal və emal sahələrinin yaradılmasının təşkili; yerli sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsinin yüksəldilməsi naminə vergi dərəcələrinin aşağı salınması; daxili bazarın qorunmasını təmin edən çevik gömrük-vergi siyasətinin təkmilləşdirilməsi; iqtisadiyyatın sərbəstləşdirilməsi, azad istehsal və ticarətin, yüksək səviyyəli rəqabətin formalaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi; istehsalın genişləndirilməsi üçün səmərəli pul-kredit siyasətinin aparılması; vergi bazasının daim genişləndirilməsi; vergidən yayınma hallarına qarşı mübarizənin daha da gücləndirilməsi; vergi islahatlarının investisiya mühitinə mənfi təsir göstərmədən dövlət gəlirlərinin artırılmasına yönəldilməsi.*

**Açar sözlər:** vergi qanunvericiliyi, vergi sistemi, beynəlxalq standartlar, inkişaf tarixi, vergitutma obyekti, vergi münasibətləri, iqtisadi mühit, beynəlxalq əməkdaşlıq, müqayisəli təhlil, iqtisadi əlaqələr, vergi hüququ

Azad bazar iqtisadiyyatı yolu seçmiş dövlətdə özəl sektorun, xüsusilə də sahibkarlıq münasibətlərinin inkişafı mühüm əhəmiyyət kəsb edən məsələdir. Hazırda ölkəmiz həm regionda, həm də dünyada iqtisadi baxımdan intensiv iqtisadi inkişafı ilə seçilən öz mövqeyini birbaşa ifadə edə bilən ölkələr sırasındadır. Müasir iqtisadi inkişafın əsas təkanverici qüvvəsi olan vergitutma məsələsi istənilən dövlətin iqtisadi inkişafında, xarici iqtisadi əlaqələrinin effektiv şəkildə qurulmasında əsas rol oynayır. Beynəlxalq hüquq normalarının mürəkkəbləşməsi və inkişafı zəminində dövlətlər öz milli vergi

qanunvericiliklərini təkmilləşdirir, xarici hüququn subyektlərinin onların ərazilərində apardığı və onların öz subyektlərinin xarici dövlətlərin ərazisində apardığı fəaliyyətinin nəticələrinin vergiyə cəlb edilməsi qaydalarını müəyyənləşdirir.

Vergi – insan sivilizasiyasının qədim institutu olmaqla, dövlətin zəruri atributu kimi çıxış edir. Buna görə də, vergi tarixi dövlətçiliyinin formalaşması və inkişafı ilə bilavasitə bağlıdır. Vergilər vasitəsilə hüquqi və fiziki şəxslərin gəlirlərinin dövlət xəzinəsinə bölgüsü (publik maliyyə) hələ qədim mütəfəkkirlər tərəfindən əsaslandırılmışdır (1). Vergilər müəyyən edilmiş qanun çərçivəsində təsərrüfat subyektlərindən və əhalidən dövlət tərəfindən alınan icbari ödənişlərdir. Vergilər dövlətin yarandığı gündən cəmiyyətdə iqtisadi münasibətlərin zəruri həlqəsini təşkil edir. Vergilərlə bağlı ən mühüm və ümumi məsələlər adətən dövlətlərin ali qanunlarında əks olunur. Azərbaycan Respublikası (AR) Konstitusiyasının 73-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz (2). Vergi münasibətlərinin təkmilləşdirilməsi bütün dövlətlərin fəaliyyətlərinin ən vacib, eyni zamanda mürəkkəb sahələrindən hesab olunur. Vergi sistemi təkrar istehsal prosesinin iştirakçılarının iqtisadi maraqlarını ifadə etməklə, onların tarazlığını və bununla da ictimai tərəqqini təmin edir. Vergi sistemi müəyyən edilmiş qaydada tutulan vergi, yığım, rüsum və digər ödənişlərin məcmusundan ibarətdir. Hər bir dövlətin vergi sistemini bilavasitə formalaşdıran əsas elementlər aşağıdakılardır: vergi orqanları sistemi; vergi qanunvericiliyi sistemi; vergi siyasətinin prinsipləri; vergilərin büdcələr üzrə bölüşdürülməsi qaydası; vergi nəzarətinin forma və üsulları; vergi icraatının qaydaları və şərtləri; beynəlxalq ikiqat vergitutma probleminin həllinə yanaşma üsulları və s.

Respublikamızın vergi sistemi müstəqilliyimiz elan edildikdən sonra, 1991-ci ilin sonu – 1992-ci ilin əvvəllərində təşəkkül tapmağa başlamışdır. Ümumiyyətlə, müasir vergi sisteminin formalaşmasını şərti olaraq üç mərhələyə ayırmaq olar: 1991-1995-ci illəri əhatə edən 1-ci mərhələdə əsasən gəlirlərə və xərclərə qoyulan vergilər haqqında qanunlar qəbul edilmişdir. 1991-ci ilin dekabrında "Əlavə dəyər vergisi" və "Aksizlər" haqqında, 1992-ci ilin iyununda "Hüquqi şəxslərin mənfəətindən və gəlirlərin ayrı-ayrı növlərindən vergilər" və "Fiziki şəxslərdən gəlir vergisi" haqqında, 1993-cü ilin fevralında "Torpaq vergisi" haqqında qanunlar qəbul edilmişdi. 1992-ci ilin ortalarından başlayaraq Respublikanın müstəqil vergi xidməti orqanı formalaşmağa başladı (3). 1995-2000-ci illəri əhatə edən ikinci mərhələdə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra yeni vergi növləri haqqına qanunlar qəbul edilmiş, onların normativ-hüquqi bazası yaradılmışdır. Başqa sözlə, 1995-ci ilin martında "Əmlak vergisi" və "Mədən vergisi", 1996-cı ilin dekabrında "Dövlət yol fonduna vergilər" haqqında qanunlar qəbul edilmiş,

vergi qanunlarının tətbiqi ilə bağlı təlimatlar, əsasnamələr işlənib hazırlanmışdır.

1995-ci ilin sonu 2000-ci il də daxil olmaqla 2-ci mərhələdə cəmiyyətdə və iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərindən asılı olaraq əvvəlki mərhələdə qəbul edilmiş qanunların təkmilləşdirilməsi istiqamətində işlər aparılmış, müvafiq vergi qanunlarında dəyişikliklər və düzəlişlər edilmiş, Respublika Prezidenti 1999-cu ilin yanvarında bilavasitə vergi orqanlarına da aidiyyəti olan Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında (4) Fərman imzalamışdı. Bu mərhələnin yekunu kimi 2000-ci ilin iyulunda Vergi Məcəlləsinin qəbul edilməsini göstərmək olar.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasət çərçivəsində vergi sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də qanunvericilik bazasının təkmilləşdirilməsi olmuşdur. Vergi Məcəlləsinin qəbul edilməsi vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addımlardan biri idi. Sənədin qəbulu islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı. Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyuldu. AR Vergi Məcəlləsinə əsasən ölkənin vergi sisteminin əsasında aşağıdakı prinsiplər durur: vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır; vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır; heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz; vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz; mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır; AR vergiləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir, onların dəyişdirilməsi və ya ləğv edilməsi Vergi Məcəlləsinə dəyişiklik edilməsi ilə həyata keçirilir; heç şəxsin üzərinə Vergi Məcəlləsi ilə müəyyən edilən vergilərin xüsusiyyətlərinə malik və Vergi Məcəlləsi ilə müəyyən edilməyən, yaxud Vergi Məcəlləsi ilə müəyyən edilən qaydalardan fərqli olaraq müəyyən edilən vergilər ödəmək vəzifəsi qoyula bilməz.

Vergi siyasəti həyata keçirilən zaman dövlətin iqtisadiyyatın tənzimlənməsində iştirakı vergi dərəcələri, vergi güzəştləri, vergi bazası və bir sıra digər vergi alətlərinin köməyi ilə təmin edilir. Bu zaman dövlət vergi alətlərindən istifadənin birbaşa və dolayı metodlarından istifadə edir. Vergi siyasətinin həyata keçirilməsinin səmərəli vasitələrindən biri vergi güzəştləridir. Bu onunla əlaqədardır ki, tələb olunan şərtlərə cavab verən hər bir fiziki və hüquqi şəxsə vergidən tam və ya qismən azad olma hüququ verilə bilər. Dövlət vergi

ödəyicilərinə bu və ya digər vergi güzəştlərini verərkən, ilk növbədə vergi tənzimlənməsinin müxtəlif iqtisadi proseslərə təsirini gücləndirir. Ayrı-ayrı ölkələrin qanunvericiliyində bəzi növ sahibkarlıq fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur (5). Vergi siyasəti həyata keçirilərkən dövlət büdcəsinin tənzimlənməsi, planlaşdırılması və ona nəzarətin qanunla müəyyən edilmiş normaları reallaşdırılır. İqtisadi cəhətdən əsaslandırılmış vergi siyasəti maliyyə vəsaitlərinin vergi sistemi vasitəsi ilə toplanmasının optimallaşdırılması məqsədini güdür. Vergi siyasətinin əsas məqsədi və vəzifələri konkret iqtisadi şəraitdən asılıdır. Məqsəd və vəzifələr müəyyən edildikdən sonra dövlət onların həyata keçirilməsi üsullarını işləyib hazırlayır.

Vergi siyasətinin səmərəliliyi dövlətin, onu hansı prinsiplər əsasında həyata keçirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Respublikamızda vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir (6): vergi sisteminin normativ-hüquqi bazasının daha da təkmilləşdirilməsi və vergi mədəniyyətinin formalaşdırılması; vergi ödəyicilərinin fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması; vergi sisteminin idarəetmə orqanlarının fəaliyyətinin digər dövlət orqanlarının fəaliyyəti ilə əlaqələndirilməsi; dövlət vergi xidməti orqanları əməkdaşlarının fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmini; inkişaf etmiş ölkələrin vergi sisteminin özünü doğrultmuş təcrübəsindən milli-mənəvi dəyərlər nəzərə alınmaqla istifadə olunması; sahibkarlıq və investisiya fəallığını stimullaşdıran mütərəqqi vergi sisteminin formalaşdırılması.

Hazırda AR-in vergi sistemi ölkənin təsərrüfat mexanizminin fəaliyyətini təmin edir, dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verir, büdcə kəsirinin artımının qarşısını alır, ümumiyyətlə bazar iqtisadiyyatına keçidin bütün tələblərinə cavab verir. Respublikamızın müasir vergi sisteminə aşağıdakı xarakterik əlamətlər xasdır: ayrı-ayrı qanunvericilik aktlarına deyil, hüquqi əsasa arxalanır, yəni məcmu ictimai məhsulun bir hissəsinin yenidən bölüşdürülməsi ilə bağlı bütün maliyyə münasibətlərini əhatə edir; vergi ödənişlərinə vergi orqanları tərəfindən vahid nəzarət həyata keçirilir; vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyaları arasında vergi yükünün ədalətlə bölüşdürülməsini təmin edir; xarici ölkələrin təcrübəsinin nəzərə alınması beynəlxalq inteqrasiya proseslərinə qoşulmağa imkan verir; Azərbaycanın vergi sistemi digər ölkələrin vergi təcrübəsində işlənib hazırlanmış prinsiplər nəzərə alınmaqla vergitutmanın klassik prinsipləri əsasında formalaşmışdır.

Respublikamızın vergi sistemində aparılan islahatların əsas məqsədlərindən biri də, onun rəqabət qabiliyyətinin artırılması, inkişaf etmiş dövlətlərin, xüsusilə də Qərbi Avropa dövlətlərinin vergi sistemi səviyyəsinə çatdırmaqdır. Məlum olduğu kimi, Harvard biznes məktəbinin professoru, Beynəlxalq İqtisadi Forumun (WEF) Qlobal Rəqabət qabiliyyətliliyi İndeksinin (Global Competitiveness Index) hesablanması metodologiyasının banisi Maykl Porterin beynəlxalq rəqabət nəzəriyyəsinə (7) əsasən dövlətin vergi siyasəti rəqabət qabiliyyətliliyi sisteminin makrosəviyyəli determinantıdır, belə ki, vergi siya-

səti təsərrüfat subyektlərinin fəaliyyətinin ümumi milli iqtisadi şərtlərini formalaşdırır. Vergi siyasətinin reallaşması forması vergi sistemidir ki, o dövlətin maliyyə və hüquqi sisteminin bir hissəsi olub, öz növbəsində, bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sıra elementlərdən ibarət təşkil olunmuş sistem kimi çıxış edir.

AR-in vergi sistemi özlüyündə resurs rəqabət üstünlüyüdür və başqa rəqabət üstünlükləri növlərinə öz təsirini göstərir. Hər bir sistemin tərkib hissələri qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədirlər, deməli, vergi siyasəti rəqabət qabiliyyətliliyi sisteminin tərkib hissəsi kimi, makro səviyyəyə aid olaraq, müxtəlif səviyyədə sistemin tərkib hissələri ilə qarşılıqlı təsirdədirlər. Vergi siyasəti mədəni və qlobal rəqabət üstünlüklərinin əmələ gəlməsinə imkan yaradır (8).

Ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin ardıcıl həlli nəinki Beynəlxalq İqtisadi Forumun (9) reytinqlərində qeyd olunan, həmçinin Dünya Bankı ("Doing Business 2009") və Beynəlxalq Maliyyə Korporasiyası kimi beynəlxalq maliyyə institutlarının hesabatlarında iqtisadiyyatın bütün sahələrində tərəqqi və inkişafı müşahidə etməyə imkan verir. Göstərilənlər Azərbaycanda müasir vergi sisteminin formalaşdırılması istiqamətində həyata keçirilən islahatların davamlı və ardıcıl olmasını ön plana çəkir.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası qısa zaman ərzində iqtisadi sahədə böyük nailiyyətlərin əldə edilməsinə, Azərbaycanın regionda ən dinamik inkişaf edən bir dövlətə çevrilməsinə imkan vermişdir. Ümummilli lider Heydər Əliyevin siyasi kursuna əsaslanaraq Prezident İlham Əliyevin yürütdüyü siyasət ilk növbədə, ölkədə sosial iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara çatdırılması kimi mühüm həlqələri əhatə etməklə dövlətçilik maraqlarına xidmət edən iqtisadi strategiyanın uğurla həyata keçirilməsinə zəmin yaradılmışdır.

Bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən – günə artmasında göstərir. Hər il minlərlə yeni müəssisə, hüquqi və fiziki şəxs sahibkarlıq fəaliyyətinə başlayır, işgüzar münasibətlərə qoşulur. Belə bir şəraitdə yüz minlərlə vergi ödəyicisinin fəaliyyətinə vergi nəzarətini qurmaq, onlara keyfiyyətli xidmət etmək qlobal bir vəzifəyə çevrilməkdədir. Dünya təcrübəsindən məlumdur ki, ölkədə işgüzar fəallıq artdıqca, vergidən yayınma halları və vergi hüquq pozuntuları da çoxalır. Qanunvericiliyin və vergi inzibatçılığının müntəzəm surətdə təkmilləşdirilməsinə baxmayaraq, vergi ödəyiciləri tərəfindən yayınma metodları və formaları dəyişir. Odur ki, Respublikanın vergi sistemində aparılan islahatlar daha da dərinləşməli və vergi sistemi üstün inkişaf edən sahəyə çevrilməlidir.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, bu gün “Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik”.

Müasir dövrdə Respublikamız Avropaya inteqrasiya yolunu seçmişdir. Bu sferada əsas məsələlərdən biri iqtisadi inkişafdır. 1 may 2004-cü il tarixində Aİ-yə 10 yeni üzv-dövlət daxil olmuşdur. Bu isə öz növbəsində, Aİ-nin şərqi və cənubi qonşuları ilə mövcud olan əlaqələrinin daha da genişləndirilməsində yeni imkanlar yaradan coğrafi siyasətinin dəyişilməsinə təkan vermişdir. Bu siyasət Aİ-nin qonşuları ilə qarşılıqlı olan əməkdaşlığının gələcək inkişafını müəyyən etməklə, təhlükəsizliyi, stabilliyi və tərəqqini irəli çəkməkdədir. Son illər ölkəmizin vergi qanunvericiliyində aparılan əsaslı dəyişikliklər, dövlətimizin yürütdüyü vergi siyasətini makroiqtisadi inkişafı stimullaşdıran iqtisadi alətə çevirmiş, sahibkarlarla vergi xidməti əməkdaşları arasında münasibətlərin qarşılıqlı anlaşma əsasında qurulmasına səbəb olmuş, habelə vergi nəzarətinin təkmilləşdirilməsi vasitəsi ilə vergilərin vaxtında və tam həcmdə büdcəyə alınmasının təmin olunması məqsədilə vergi orqanlarının inzibati strukturunda adekvat islahatların həyata keçirilməsini zəruri etmişdir.

İslahatların ilk mərhələsində dövlət başçısı vergi xidmətinə etimad göstərərək 11 fevral 2000-ci il tarixli fərmanı ilə AR Baş Dövlət Vergi Müfəttişliyinin bazasında dövlətin vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə vergilər və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və vergitutma sahəsində dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının – AR Vergilər Nazirliyinin yaradılması barədə qərar qəbul edildi. Bundan sonra, AR Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanı ilə Vergilər Nazirliyinə təhqiqat və istintaq aparılması səlahiyyətləri verilmişdir. Bu fərmanın icrası ilə əlaqədar Hüquq-mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsinin bazasında Vergi Cinayətlərinin İbtidai Araşdırılması İdarəsi, daha sonra isə nazirlik də aparılan struktur dəyişiklikləri ilə bağlı Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradılmışdır.

2000-ci ildən başlayaraq, vergi xidmətinin tarixində ilk dəfə olaraq vergi təbliğatı, vergi ödəyicilərinin vergi məsələləri üzrə məlumatlandırılması, əhalidə vergi mədəniyyətinin və təfəkkürünün formalaşdırılması sahəsində işlərin təşkili Respublikanın vergi sistemində aparılan islahatlara paralel olaraq həyata keçirilmişdir. Vergi ödəyicilərinə xidmət üzrə hələ 2000-ci ildə MDB-yə üzv-dövlətlər arasında ilk dəfə olaraq Respublikamızın yerli vergi orqanlarında məlumatlandırma şöbələri yaradıldı. Vergilər Nazirliyinin funksional idarəetmə mexanizminin təkmilləşdirilməsi, vergi ödəyicilərinin məlumatlandırılması və vergi təbliğatı tədbirlərinin gücləndirilməsi, yerli vergi orqanlarında xidmət işinin yüksək səviyyədə təşkilinin təmin olunması məqsədilə 2002-ci ilin sonunda nazirliyin mərkəzi aparatında Vergi ödəyicilərinə xidmət İdarəsi təşkil edildi.

2000-ci il də Vergilər Nazirliyinin rəsmi internet səhifəsi yaradılmışdır ki, onun vasitəsilə qanunvericilikdə baş verən dəyişikliklər, vergilərə dair normativ aktlar operativ qaydada vergi ödəyicilərinə çatdırılır. Vergi ödəyiciləri

tərəfindən mövcud bəyannamələrin və vergi ödəyicilərinin uçotuna dair sənəd formalarının əldə edilməsi imkanlarını genişləndirmək məqsədilə onların elektron formaları hazırlanmış və internet saytında yerləşdirilmişdir. Bunlarla yanaşı, 2001-ci il də vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artırılması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılması məqsədilə Vergilər Nazirliyinin Tədris Mərkəzi, iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələrlə münasibətlərin daha səmərəli qurulması üçün İri Vergi Ödəyiciləri ilə İş üzrə Departament (hazırda Xüsusi Rejimli Vergi Xidməti Departamenti) yaradılmışdır.

Vergilər Nazirliyinin həyata keçirdiyi islahatlar proqramı aşağıdakı əsas istiqamətləri əhatə edir: Vergilər Nazirliyinin təşkilati strukturunun təkmilləşdirilməsi sahəsində işlərin genişləndirilməsi; Tədris mərkəzinin yaradılması; vahid kompyuter şəbəkəsinin yaradılması; vergi nəzarətinin təkmilləşdirilməsi; vergi qanunvericiliyində dəyişikliklərin işlənib hazırlanması və həyata keçirilməsi; vergi ödəyicilərinin məlumatlandırılması və vergi təbliğatı və s.

Qeyd etmək lazımdır ki, AR Prezidenti cənab İlham Əliyev vergi sisteminin inkişafına daim diqqət göstərir, bu sahədə verdiyi tapşırıqlar əsasən dövlət idarəçiliyinin müasir Avropa standartlarına uyğunlaşdırılması istiqamətində təkmilləşdirmələr aparılmasından, vergi orqanları ilə vergi ödəyicilərinin arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılmasından, müasir kompyuter və proqram təminatları, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində işlərin davam etdirilməsindən ibarətdir. Ölkə başçısının 2005-ci il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)” rəhbər tutularaq 2006-cı il dən başlayaraq Vergilər Nazirliyi sistemində vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən “Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi” (AVİS) tətbiq edilir. 2007-2009-cu illər də AVİS-də yerinə yetirilən iş prosesləri genişləndirilmişdir. AVİS vasitəsilə həm vergi xidmətində sənəd dövriyyəsi elektron formata keçirilmiş və operativ informasiya mübadiləsi təmin olunmuş, həm də vergi bəyannamələrinin qəbulu və emalı prosesi sadələşdirilmiş, iqtisadi təhlilin həyata keçirilməsi və proqnozların tərtibinə imkan yaradılmışdır ki, bu da vergi xidmətinə daha səmərəli nəzarət mexanizmlərini tətbiq etməyə imkan verir.

Azərbaycanın vergi sisteminin ötən 10 ildə əldə etdiyi uğurlardan biri də beynəlxalq vergi sisteminə inteqrasiyasıdır. Digər ölkələrin vergi orqanları ilə ikitərəfli və çoxtərəfli əsaslarda qurulan əməkdaşlıq, vergi sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla hərtərəfli işgüzar əlaqələr Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinə uyğun həyata keçirilmişdir. AR Vergilər Nazirliyi Avropadaxili Vergi Administrasiyaları Təşkilatının, MDB vergi orqanları rəhbərlərinin Koordinasiya Şurasının üzvüdür. MDB vergi

orqanları rəhbərlərinin Koordinasiya Şurasının 2003 və 2008-ci illərdə toplantıları Bakıda yüksək səviyyədə keçirilmişdir. Ötən dövr ərzində xarici dövlətlərin vergi orqanları ilə qurulmuş əməkdaşlığın hüquqi bazası da genişləndirilmiş, Fransa, Çexiya və Estoniyanın vergi administrasiyaları ilə əməkdaşlığa dair memorandumlar imzalanmışdır. Hazırda Böyük Britaniya, İrlandiya, Litva, Latviya və Macarıstanın vergi orqanları ilə analoji sənədin imzalanması üçün müvafiq işlər həyata keçirilir. Aparılmış məqsədyönlü işlər nəticəsində artıq 42 dövlətlə gəlir və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişlər imzalanmışdır.

Respublikamızda aparılan vergi islahatlarının nəticələri ölkə iqtisadiyyatının inkişafında öz töhfəsini vermiş və bu inkişaf nüfuzlu beynəlxalq reytinqlərdə öz təsdiqini tapmışdır. Ölkələrin vergitutma baxımından reytinqinin muəyyənləşdirilməsində ən etibarlı mənbələrdən biri Dünya Bankı tərəfindən hər il nəşr edilən *Doing Business Report (*Biznes hesabatı*)* çərçivəsində tərtib olunan vergitutma reytinqidir. Hesabatdakı Vergitutma Reytinqi aşağıdakı üç əsas göstərici əsasında təyin edilir: 1) Bir ildə vergi ödəmələrinin sayı: orta hesabla ölkədə orta ölçülü bir firmanın bir ildə vergi ödəmələrinin sayını ifadə edir. 2) Bir ildə vergi ödəmələrinə sərf olunan saatlar: orta hesabla ölkədə orta ölçülü bir firmanın bir ildə vergi ödəmələrinə sərf etdiyi saatları ifadə edir. 3) Məcmu vergi dərəcəsi: orta hesabla ölkədə orta ölçülü bir firmanın sosial müdafiə ayırmaları da daxil olmaqla, ödədiyi bütün vergilərin mənfəətindəki payını ifadə edir (10).

Hesabatın 2012-ci il üzrə nəşrində göstərilən Azərbaycanın Vergitutma Reytinqinə əsasən Azərbaycan Vergitutma Reytinqinə görə 183 ölkə arasında 81-ci yerdədir. Nəzərə almaq lazımdır ki, əvvəlki ilin hesabatında Azərbaycanın tutduğu yer 103-cu yer olmuşdur. Azərbaycan bu göstərici üzrə Qazaxıstan, Gürcüstan, Estoniya, Litva və Latviya istisna olmaqla, digər bütün keçmiş sovet respublikalarından, həmçinin də Qazaxıstan, Gürcüstan və Turkiyə istisna olmaqla, digər bütün qonşularından öndədir. Vergitutma Reytinqini müəyyənləşdirən üç göstəricidən birincisi olan bir ildə vergi ödəmələrinin sayına görə Azərbaycanın orta ölçülü bir firmanın bir ildə vergi ödəmələrinin sayı 18-dir və Azərbaycan bu gostərici üzrə Gürcüstan, Latviya, Qazaxıstan, Estoniya, Rusiya, Litva və Belarus istisna olmaqla, bütün digər keçmiş sovet respublikalarından, həmçinin də qonşu İrandan daha yaxşı mövqedədir. Onu da qeyd etmək lazımdır ki, bu göstərici Azərbaycanda 2008-ci ildə 37, 2009-2010-cu illərdə 22 olmuşdur (11).

Vergitutma Reytinqinin ikinci göstəricisi olan bir ildə vergi ödəmələrinə sərf olunan vaxta görə Azərbaycan bu göstərici üzrə keçmiş sovet respublikalarından Moldova, Latviya, Rusiya, Gürcüstan, Ermənistan, Belarus və Ukraynadan, həmçinin də qonşu İrandan daha yaxşı mövqedədir. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanda bu göstərici 2008-ci ildə 952, 2009-2010-cu illərdə 376, 2011-ci ildə isə 306 saat olmuşdur. Vergitutma Reytinqinin

sonuncu göstəricisi olan məcmu vergi dərəcəsi üzrə Azərbaycanın bəzi ölkələrlə müqayisəsi Azərbaycanda 40%-dir. Reytinq məlumatlarının təhlili göstərir ki, Azərbaycan bu göstərici üzrə Gürcüstan, Qazaxıstan, Moldova və Latviya istisna olmaqla, bütün digər keçmiş sovet respublikalarından, həmçinin də qonşu İran və Türkiyədən daha yaxşı mövqedədir (12).

Vergitutma Reytinqinin sonuncu göstəricisi olan məcmu vergi dərəcəsi üzrə Azərbaycanın bəzi ölkələrlə müqayisəsi Azərbaycanı bu göstərici üzrə Gürcüstan, Qazaxıstan, Moldova, Latviya, Litva və Ermənistan istisna olmaqla, bütün digər keçmiş sovet respublikalarından, həmçinin də qonşu İran və Türkiyədən daha yaxşı mövqedədir. Respublikamızda büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülsə də, bu sahədə müəyyən problemlər mövcuddur. Bu problemləri həll etmək üçün dövlət vahid büdcə-vergi siyasətini həyata keçirərkən inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaqla yanaşı, milli, regional prinsipləri də nəzərə almalıdır. Respublikamızın sosial-iqtisadi inkişaf konsepsiyasına və ortamüddətli maliyyə proqramına uyğun olaraq iqtisadiyyatın inkişaf etdirilməsini və nəzərdə tutulan fiskal siyasətin effektiv həyata keçirilməsini təmin etmək üçün aşağıdakılar nəzərə alınmalıdır: ümumi daxili məhsulun strukturuna və sahə quruluşuna uyğun büdcə gəlirlərinin artımını təmin etmək; vergi daxilolmalarının proqnozlaşdırılması modelini təkmilləşdirmək və bu prosesi keyfiyyətli həyata keçirmək üçün real informativ-məlumat sistemini təsis etmək; potensial gəlirlərin büdcəyə daxilolma əmsalının yüksəldilməsinə nail olmaq; vergi ödəyicilərinin fəaliyyətini təşviq etmək üçün həyata keçirilən stimullaşdırıcı tədbirləri davam etdirmək; dövlət vəsaitindən səmərəli istifadəni, büdcə xərclərinin strukturunun təkmilləşdirilməsini və xərclərin şəffaflığının artırılmasını təmin edən qanunvericilik bazasının formalaşdırılmasını davam etdirmək; kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün hazırlanmış proqramların maliyyələşdirilməsində büdcənin rolunu və bu istiqamətə vəsait qoyuluşunu artırmaq; büdcə vəsaitlərinin məqsədyönlü və səmərəli istifadə olunmasını təmin etmək məqsədilə xəzinə nəzarətini daha da gücləndirmək, büdcə təşkilatlarında borclanma prosesini çevik idarə etmək; fiskal siyasətin alətlərindən səmərəli istifadə etmək və dövlət satınalmaları zamanı büdcə xərcləri multiplikatorunu nəzərə almaq; dövlətin xəzinədarlığı vasitəsilə büdcə təşkilatları xərclərinin idarə edilməsi potensialını artırmaq, büdcə vəsaitlərinin təyinatı üzrə düzgün xərclənməsi üzərində dövlət maliyyə nəzarətini daha da gücləndirmək; dövlət büdcəsi kəsirinin tədricən azaldılması siyasətini davam etdirmək və bu kəsiri iqtisadiyyatın stimullaşdırılması həddində saxlamaq; büdcə kəsirini inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdirmək; dövlətin qısamüddətli istiqraz vərəqələri bazarını daha da inkişaf etdirmək, dövlətin qiymətli kağızlar bazarında investorların iştirakını genişləndirmək və qiymətli kağızlara olan tələbatı artırmaqla normal rəqabət prinsipləri əsasında faiz dərəcələrinin aşağı düşməsinə şərait yaratmaq.

Araşdırılmalar göstərir ki, Respublikamızda büdcə-vergi siyasətinin

təkmilləşdirilməsi naminə mühüm addımlar atılır, böyük nailiyyətlər əldə edilir. Aşağıda sadalanan təkliflərin həyata keçirilməsinin də bu istiqamətdə öz töhfəsini verəcəyi fikrindəyik: büdcə təşkilatlarının və idarəetmə orqanlarının sayının azaldılması; bələdiyyə büdcələrinin inkişaf etdirilməsi üçün yerlərdə (paytaxtdan uzaq rayonlarda və şəhərlərdə) istehsal və emal sahələrinin yaradılmasının təşkili; yerli sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsinin yüksəldilməsi naminə vergi dərəcələrinin aşağı salınması; daxili bazarın qorunmasını təmin edən çevik gömrük-vergi siyasətinin təkmilləşdirilməsi; iqtisadiyyatın sərbəstləşdirilməsi, azad istehsal və ticarətin, yüksək səviyyəli rəqabətin formalaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi; istehsalın genişləndirilməsi üçün səmərəli pul-kredit siyasətinin aparılması; vergi bazasının daim genişləndirilməsi; vergidən yayınma hallarına qarşı mübarizənin daha da gücləndirilməsi; vergi islahatlarının investisiya mühitinə mənfi təsir göstərmədən dövlət gəlirlərinin artırılmasına yönəldilməsi.

## ƏDƏBİYYAT


1. Блоуг М. Экономическая мысль в ретроспективе / Пер.с англ. М.: Дело, 1994, с. 34-37; Стиглиц Дж.Ю. Экономика государственного сектора / Пер. с англ. М., 1997, с. 171; Черник Д.Г. Налоги в рыночной экономике. М., 1997, с. 88-91.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2015, s. 15.
3. www.e-qanun.az.
4. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 yanvar 1999-cu il.
5. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: Elm, 2005, s. 145.
6. Səmədzadə Ş.Ə., Musayev V.R., Seyfullayev İ.Z. “Sahibkarlığın əsasları”. Bakı: Caşıoğlu, 2000, s. 78.
7. Портер М. Конкуренция. Пер. с англ. М.: Вильямс, 2005, с. 56
8. Yusifov C. Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin artmasında müasir vergi sistemi determinantı. Azərbaycanın Vergi Xəbərləri. Praktika. N-5, 2010, s. 39-40.
9. WEF. The Global Competitiveness Report 2009-2010. World Economic Forum, 2009. www.weforum.org.
10. Hacızadə E.M, Bağırzadə E.r. Azərbaycan iqtisadiyyatının dunyadakı reytinqi. Bakı: Elm, 2011, s. 111-117. www.doingbusiness.org/, The World Bank, *«Doing Business Report»*.
11. www.standardandpoors.com/, Standard & Poor's, *«Sovereign Ratings»*. www.institutionalinvestor.com/, Institutional Investor, *«Country Credit Rating»*.
12. www.weforum.org/, World Economic Forum, *«The Global Competitiveness Report»*.


## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ НАЛОГОВОГО ЗАКОНОДАТЕЛЬСТВА: В ПЛАНЕ СРАВНИТЕЛЬНОГО АНАЛИЗА ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ

**Э.В.МИРЗАЛИЕВ**

### РЕЗЮМЕ

В статье вопросы формирования и развития налогового законодательства рассматриваются в плане сравнительного анализа законодательства Азербайджанской Республики и международных стандартов. На основе проведенного анализа отмечается, что в республике предпринимаются важные шаги для совершенствования бюджетно-

налоговой политики, имеются большие достижения. В то же время, в статье отмечается значение реализации в данном направлении следующих предложений: уменьшение количества бюджетных организаций и органов управления; организация создания на местах (в отдаленных от столицы районах и городах) производственных и обрабатывающих отраслей с целью развития муниципальных бюджетов; снижение налоговых ставок ради развития предпринимательства и повышения уровня занятости; усовершенствование обеспечивающей защиту внутреннего рынка гибкой таможенно-налоговой политики; реализация соответствующих мероприятий для либерализации экономики, свободного производства и торговли, формирования конкуренции на высоком уровне; проведение рациональной денежно-кредитной политики для расширения производства; постоянное расширение налогового рынка; дальнейшее усиление борьбы против случаев уклонения от налогов; направление налоговых реформ на увеличение доходов государства без негативного воздействия на инвестиционную среду.

**Ключевые слова:** налоговое законодательство, налоговая система, международные стандарты, история развития, объект налогообложения, налоговые отношения, экономическая среда, международное сотрудничество, сравнительный анализ, налоговое право.

## FORMATION AND DEVELOPMENT OF TAX LEGISLATION: ON THE BASIS OF A COMPARATIVE ANALYSIS OF THE REPUBLIC OF AZERBAIJAN AND INTERNATIONAL STANDARDS

**E.V.MIRZALIYEV**

### SUMMARY

The paper studies formation of tax legislation and its development issues analyzing national legislation of the Republic of Azerbaijan as well as international standards. Referring to the analysis, it`s noted that there have been taken important measures in the improvement of the budget-tax policy in our republic and significant achievements are obtained. Besides, the importance of the implementation of following suggestions in this direction has been indicated in the article: reduction of the number of budgetary organizations and management bodies; creation of production and processing areas in certain places (in cities and regions away from the capital) for the development of budgetary organizations; abating the tax tariffs for the sake of development of local business and raising occupation level of the people; improvement of prompt customs-tax policy that ensures protection of internal market; easing the economy; taking appropriate measures with the purpose of forming high level competition; conducting the effective money-credit policy to enhance the production; enlarging tax basis permanently; strengthening struggle against the tax evasion issues; directing tax reforms to increase state revenues without negative impact on the investment climate.

**Key words**: tax legislation, tax system, international standards, development history, object of taxation, tax relations, economic atmosphere, international cooperation, comparative analysis, economical relations, tax law.